Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2022, **s. 49-57**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2022, **с. 49-57**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2022, **pp. 49-57**

UOT 786/789

Firuz Əliyev
Xalq artisti, dosent
Azərbaycan Milli Konservatoriyası
AZ 1073, Bakı ş., Ələsgər Ələkbərov 7

AZƏRBAYCANDA TAR İFAÇILIĞI SƏNƏTİ

Açar sözlər: *Azərbaycan, ifaçılıq sənəti, muğam, tar, solo*

Müasir dövrümüzdə Azərbaycan musiqi mədəniyyətinin bir çox sahələrində yüksək səviyyədə inkişaf özünü göstərməkdədir. Bu da incəsənət sahəsində çalışan insanlara yüksək səviyyədə göstərilən dövlət qayğısı ilə bağlıdır. Məqalədə Azərbaycanda tar ifaçılığı sənəti, onun inkişaf mərhələləri, geniş tədqiq edilmişdir. Burada ustad tarzənlərlə yanaşı gənc ifaçılar haqqında da müfəssəl məlumat öz əksini tapmışdır. Həmçinin, ifaçılıq sənətinin inkişaf yoları, müasir ifaçılıq məktəbinin öyrənilməsi də araşdırılmışdır.

Фируз Алиев

ИСКУССТВО ИГРЫ НА ТАРЕ В АЗЕРБАЙДЖАНЕ

Ключевые слова: *Азербайджан, исполнительское искусство, мугам, тар, соло*

В наше время высокий уровень развития проявляется во многих сферах азербайджанской музыкальной культуры. Это связано с высоким уровнем государственной заботы о людях, работающих в сфере искусства. В статье рассматривается искусство игры на тар в Азербайджане, этапы его развития. Здесь, помимо мастеров тара, отражена подробная информация о молодых исполнителях. Также изучалось развитие исполнительского искусства, изучение современной исполнительской школы.

Firuz Aliyev

THE ART OF TAR PLAYING IN AZERBAIJAN

Keywords: *Azerbaijan, performing arts, mugam, tar, solo*

In modern times, a high level of development is manifested in many areas of Azerbaijani music culture. This is due to the high level of state care for people working in the field of art. The article examines the art of tar playing in Azerbaijan,

its stages of development. Along with master tar players, detailed information about young performers is also reflected here. Also, the development of the performing arts, the study of the modern school of performance was studied.

Tar Azərbaycanda və Şərq ölkələrində geniş yayılmış musiqi alətlərindən biridir. O, azərbaycançılıq ruhunu aşılayan qədim milli musiqi alətimizdir. Bildiyimiz kimi, tar mizrabla çalınır və simli, akademik səslənməyə malik alətdir.Tarın yaranması haqqında bir sıra mənbələr mövcuddur. Bəzi mənbələrdə qeyd olunur ki, tar X əsrdə Türküstan türklərindən olan Tərxanın oğlu Məhəmməd Cərco şəhərinin Fərab kəndində icad edilib. Digər bir mənbədə Əl Nəqi xan Vəziri yazır: "Tarın mənşəyi Ərəstuya aiddir ki, Fərabi onu pərdələrə bölmüşdür (1, səh.7). İlkin forması 5 simli, sadə olan tar 1870-1875-ci illərdə Sadıqcan tərəfindən rekonstruksiya edilərək, ona daha 6 sim əlavə olunmuşdur.

"Tar" sözünün mənası fars dilindən təcümədə – tel, sim deməkdir. Bəzi mənbələrə görə tara qədimdə vətər də deyiblər. Vətər isə dairənin hər hansı iki nöqtəsini birləşdirən düz xəttə deyilir. Diapazonu kiçik oktavanın do səsindən II oktavanın sol səsinə qədər məsafəni əhatə edir. Alət transpozisiyalıdır, səslənməsi idiofonlu alətlərimizdən fərqli olaraq akamedikdir, əsasən, in H, yəni si notuna köklənir və notları metso-soprano açarında yazılır.

XIX əsrdə Azərbaycan incəsənətində Qarabağ zonası xüsusilə seçilmişdir. Burada şeir və musiqi məclislərinin təşkil olunması həmçinin musiqi sahəsinə də təsirsiz ötüşməmişdir. Təsadüfi deyildir ki, Şuşa şəhəri bir çox mənbələrdə Qafqazın konservatoriyası adlanır. Bu məclislərin təşkilində iki görkəmli tarixi şəxsiyyətin – Xurşud Banu Natəvanın və Mir Möhsün Nəvvabın böyük xidmətləri olmuşdur. Natəvan (1832-1897) həm şair, rəssam, həm də doğma diyarın incəsənətinin inkişafında fövqəladə xidmətləri olmuş ziyalı kimi yerli camaat arasında çox böyük nüfuza malik idi. Onun məclislərində kişilərdən əlavə qadınlar da aktiv iştirak etmiş incəsənət nümunələrini və eləcə də şeir və ədəbiyyat əsərlərini müzakirə etmişlər. Bu qadınların içərisində Azərbaycan klassik musiqisinin təməlini qoymuş Üzeyir Hacıbəylinin anası da var idi.

Mir Mövsüm Nəvvabın təşkil etdiyi "Məclisi-üns"ün istirakçıları şeir və sənətin inkişaf istiqamətləri, onun gündəlik qayğıları haqda fikir mübadilələri aparmaqla yanaşı, ədəbi irsin xalq kütləsi arasında geniş yayılmasına çalışırdılar. Bu məclisdə Qarabağın şairlərindən Qasım bəy Zakir, Asi, Baki, Vəfa, Fəna, Şahin, Katib, Məxfi, Salar, Şəhid, Aşiq, Hadi, Asəf Lənbərani və başqaları iştirak edərdilər. Məlumdur ki, XIX əsrdə Qarabağın musiqi mədəniyyətinin təkcə Qafqaz xalqları ilə deyil, eyni zamanda qonşu İranla da sıx əlaqəsi olmuşdur. Bir çox mənbələrdə İran xanəndələrini Azərbaycandan getmiş tarzənlərin müşayiət etməsi faktlarının göstərilməsi onu sübut edir ki, hər iki ölkənin sənətkarları içərisində eyni muğam ənənəsi, forma və məzmunca eyni milli kökə bağlı olan muğam

ifaçılığı mövcud olmuşdur. Musiqi məclislərini təşkil edən, dövrün məşhur musiqiçi-şair ziyalılarının, mesenatların muğamların inkişafında, onların yeni formalarının yaranmasında xüsusi səylərini qeyd etməmək olmaz. XIX əsrdə Qarabağda Xan qızı Natəvanın, Mir Möhsün Nəvvabın, məşhur xanəndə Hacı Hüsünün, Xarrat Qulunun, Şirvanda Mahmud Ağanın, Bakıda Mənsurovlar, Bakıxanovlar ailələrinin, məşhur tarzən Mirzə Fərəc Rzayevin öz evlərində keçirdikləri musiqi məclisləri Azərbaycanda muğam sənətinin yüksək inkişafını təmin etmişdir. Məşhur tarzənlər Mirzə Mənsur Mənsurovun, Əhməd və Məhəmmədrza Bakıxanov qardaşlarının və bir çox digərləri bu məclislərdə iştirak etmişlər. Xüsusən də, M.M.Nəvvab məşhur xanəndə Hacı Hüsü ilə birgə yaratdığı "Musiqiçilər məclisi"ndə musiqinin estetik problemləri, ifaçılıq, muğam sənəti müzakirə olunurdu. Məclisə məşhur xanəndə və sazəndələr M.C.Əmirov, İ.Abdullayev, S.Şuşinski, Sadıxcan və b. daxil idi.

Bildiyimiz kimi, Mirzə Sadıq Əsəd oğlu (Sadıqcan) XIX yüzilin böyük tar ustadı olmuş, tarı rekonstruksiya etmiş və müasir tarın yaradıcısı olmuşdur. XX əsrin 60-cı illərində həvəskar tarzən Varid Fərzəlibəyov tarın bəm (bas) formasını icad etmişdir. Daha sonralar Q.Qasımlı və B.Balabəyov tərəfindən daha iki növ fərqli bəm tar hazırlanmışdır. Təəccüblü deyildir ki, tar 1931-ci ildə Ü.Hacıbəyli tərəfindən yaradılan "Azərbaycan xalq çalğı alətləri" orkestrinə daxil edilmişdir və tardan bu günə kimi aparıcı alət kimi istifadə edilir. Həmçinin, tar alətində ifa həm uşaq musiqi məktəblərində, həm musiqi texnikumlarında, həm də ali təhsil ocaqlarında tədris olunur.

XX əsrin əvvələrindən başlayaraq tar ifaçılıq sənəti inkişaf edərək daha da təkmilləşmişdir. Tar Ü.Hacıbəyli tərəfindən "Azərbaycan xalq çalğı alətləri" orkestrinə daxil edildikdən sonra bu alətə uyğun not nümunələri yaranmağa başlamışdır. Tar alətinin tədrisində bu not nümunələrdən əlavə həmçinin, texniki vəsaitlər yaranmağa başladı və qamma və etüdlərdən istifadə ifa texnikasının mükəmməlləşməsinə səbəb oldu. Bu da tar ifaçılığı sahəsində yeni "məktəb" hesab edilə bilər. Azərbaycanın görkəmli sənətkarları milli ruhun aşılanmasında tara yüksək qiymət vermişlər. Fikrət Əmirovun təbirincə desək, tar azərbaycanlılar arasında ən geniş yayılmış, simləri xalqın ürək telləri ilə həmahəng səslənən çox qiymətli musiqi alətidir. Xalq yazıçısı Mirzə İbrahimov hesab edir ki, inqilabi çevrilişi cəmiyyətin köhnəlmiş iqtisadi-ictimai, siyasi və məişət formaları dağılarkən və bütün bunlar yenidən qurularkən ədəbiyyat və incəsənətdə yeni ruh, yeni meyillər hakim olmağa başlarkən, dünəndən qalan irsə qarşı mühafizəkarlıqla yanaşı, ifrat-solçu münasibətlər də özünü göstərir. Azərbaycanın dahi şəxsiyyətlərindən biri, bəstəkar Üzeyir Hacıbəyli tarı bəzi "solçuların" hücumlarından müdafiə etməklə zəngin xəzinəmizi - Azərbaycan xalq musiqisini daima müdafiə etmişdir. Zənnimcə, Moskvada keçirilən Azərbaycan incəsənəti dekadası günlərində simfonik orkestrdə sarı simli Azərbaycan tarının və başqa milli çalğı alətlərinin müvəffəqiyyətlə səslənməsi Ü.Hacıbəylinin yaradıcılıq ideyalarının

qələbəsi və milli musiqimizin təntənəsi idi. Sənətşünas Vaqif Əbdülqasımov tarın muğam operalarında əvəzsiz rolundan bəhs edərək, göstərir ki, Azərbaycan milli opera janrının əsasını muğam operaları təşkil edir və bu janrın yaradıcısı böyük bəstəkarımız Üzeyir Hacıbəyli ilk muğam operası olan "Leyli və Məcnun" da tar alətindən istifadə etməklə bu alətə olan sevgisini göstərmişdir (1, səh. 16). Sovet dönəmində tar aləti hesab edilməsinə baxmayaraq Azərbaycanın görkəmli şəxsiyyətləri alətin unudulmasına imkan verməmiş və daima tar alətini qorumuşlar. 2012-ci il dekabr ayının 7-də isə YUNESKO-nun Bəşəriyyətin Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısı müzakirə olunmuş və Azərbaycan tar ifaçılıq sənəti bu siyahıya daxil edilib.

Tar ifaçılıq sənətini 3 mərhələyə bölmək olar: I mərhələyə XIX əsrdə yaşayıb yaratmış tar ifaçıları aid edilir. Buraya ifaçı tarzənələrimizdən: Mirzə Sadıq Əsəd oğlu (1846-1902), Mirzə Fərəc (1847-1947), Məşədi Zeynal (1850-1918), Malıbəyli Həmid (1869-1922), Məşədi Cəmil Əmirov (1875-1928), Şirin Axundov (1878-1927), Qurban Pirimov (1880-1965), Mənsur Mənsurov (1887-1965), Məmmədxan Bakıxanov (1890-1957) aiddir.

Dövrünün tanınmış musiqiçisi və görkəmli tarzənlərdən biri Mirzə Sadiq Əsəd oğludur. M.S.Əsəd oğlu Şuşada Azərbaycan tarını təkmilləşdirmiş və ilk dəfə tarın çanaqlarında dəyişikliklər etmiş, tarın çanaqlarını dərin qazaraq onun çəkisini azaltmış, üzünün diametrini xeyli genişləndirərək oval formaya salmışdır. Məlumdur ki, ilk dəfə sinə üzərində tutaraq çalan Sadıqcan olmuşdur. Sadıqcana qədər tarı diz üstə qoyub çalırdılar. Bu da baş çanaqların böyük olmasından irəli gəlirdi. O, tara 6 sim əlavə edərək sayını 11-ə çatdırmışdır. Sözsüz ki, Sadıqcanın bu yeniliklərini, o dövrün tarzənləri həvəslə qəbul etmiş və öz ifaçılıq sənətlərinə geniş tətbiq etmişlər. Buradan belə nəticəyə gəlirik ki, Mirzə Sadıqdan başlayaraq Azərbaycan muğamatının ifa etmək üslubu yeni bir pilləyə qalxmış oldu. M.S.Əsəd oğlunun yeniliklərindən sonra solo instrumental ifaçılığı daha çox inkişaf etdirilmişdir. Həmçinin, Mirzə Sadıq Əsəd oğlu dövrünün ən görkəmli xanəndəsi olan Hacı Hüsü ilə birlikdə bütün yerlərə dəvət olunaraq, xüsusilə Təbrizdə onların şərəfinə verilmiş ziyafətdə özünün yeni rekonstruksiya etdiyi tarında solo çaldıqda alqışlarla qarşılanmışdır. Azərbaycan musiqsinin inkişafında əvəzsiz xidmətləri olmuş görkəmli təbliğatçı, gözəl tarzən Məşədi Cəmil muğamları ilk dəfə nota salanlardan biri hesab edilir. Belə ki, Məşədi Cəmil hələ 1912-ci ildə İstanbulda yaşadığı illərdə «Heyratı» zərbi muğamını nota salaraq «Şəhbal» jurnalında nəşr etdirmişdir. Bir çox Gəncə məclislərində Məşədi Fərzəliyevi, Malıbəyli Həmidi, sonralar isə Bülbülü və Seyid Şuşinskini tarda muşayiət edən Məşədi Cəmil 1910-cu ildə bir qrup musiqiçi ilə Riqa şəhərinə getmiş və burada «Qrammofon» firmasında bir sıra muğam və mahnılarımızı vala yazdırmışdır. Bir ifaçı kimi bu da onun müəyyən xidmətlərinə nəzər salsaq görərik ki, ifaçı tarzənələrimiz tar alətində ifa etməklə yanaşı, tarın təbliği ilə də durmadan çalışıblar. Məşədi Cəmilin İstanbulda verdiyi konsertlər rəğbətlə qarşılanırdı və

hətta türklər tarı sinə üstə çalmağı ilk dəfə onun ifasında görmüşlər. Bu da o dövrün Türkiyə mətbuatında M.Cəmilin şəklini tarla birlikdə dərc olunmasına və onun haqqında geniş məlumat məqalə şəkilində yazılmasına gətirib çıxarmışdır (10).

Tarzən və ifaçı Mirzə Fərəcin bizə çatmış yazılarına nəzər salsaq görərik ki, o, həm musiqi tarixinə dərindən bələd olmuş, həm qədim yunan filosofları və musiqişünasları – Əlfatun, Ərəstun, dahi tibb və musiqi nəzəriyyəçisi Əbu Əli İbn Sina kimi şəxslərin yaradıcılığını araşdırmış, həm də öz zəmanəsinin dəstgah tərkibinin yaxşı bilicisi idi. Təsadüfi deyildir ki, Mənsur Mənsurov, Paşa Əliyev kimi bir sıra görkəmli tarzənlər Mirzə Fərəcin tələbləri olmuşlar. Bu görkəmli tarzən - sənətkarlarla yanaşı Qurban Pirimovun tar ifaçılıq sənətində xüsusi rolunu qeyd etmək vacibdir. 70 il doğma xalqına xidmət edən Qurban Pirimovun da müəllimi Sadıqcan olmuşdur. Müəllimindən qısa müddətdə zəngin muğam sənətini öyrənmişdir. Məlumdur ki, Pirimov ilk Azərbaycan operası «Leyli və Məcnun»da solist – tarzən kimi çıxış etmişdir. Bundan əlavə qeyd etmək lazımdır ki, F.Əmirov «Şur» və «Kürd Ovşarı» sinfonik muğamlarının bəzi materiallarını məhz Q.Pirimovun çalğısından yazmışdır.

Görkəmli tarzən Mirzə Mənsur həmçinin qayğıkeş bir müəllim kimi məşhurdur. O, tarın quruluşunda (və s.) bəzi dəyişikliklər edərək, bura pərdələr qoşmuş və tar aşıqlarını möhkəmlətmişdir. Hətta 1934-cü ildə yeni quruluşda hazırladığı 2 tardan biri Parisdə, digəri isə İstanbulda incəsənət alətləri sərgisində müvəffəqiyyətlə nümayiş etdirilmişdir. Xalq musiqimizin inkişafında xüsusi xidmətləri olan tarzənlərdən Əhməd Bakıxanov, Həbib Bayramov, respublikamızın əməkdar artistləri Əhsən Dadaşov, Baba Salahov, Əliağa Quliyevin adlarının qeyd olunması çox vacibdir. Bundan əlavə bu nəsilə aid edilən tarzənlərimizdən biri S.Rüstəmov «Tar məktəbi» (1935) adlı kitabını yazaraq Respublikamızda ilk tar üçün dərs vəsaitinin müəllifi olmuşdur (8).

Azərbaycan xalq çalğı orkestri yarananda sonra tardan solo alət kimi istifadə edilməyə başlanılmışdır.

İkinci mərhələyə ifaçı tarzənlərimizdən: Azərbaycan xalq artistləri Ağasəlim Abdullayev, Möhlət Müslümov, Firuz Əliyev, əməkdar artistlərdən Valeh Rəhimov, Elxan Mansurov və s. kimi görkəmli şəxsiyyətlər aid edilir. Bu ifaçı tarzənlərimiz də öz sənətlərinə böyük tələbkarlıqla yanaşaraq öz üzərində çalışmışlar. Ağasəlim Abdullayev bir ifaçı kimi öz gözəl füsunkar ifası ilə hamını valeh etməyi bacarmış sənətkarlarımızdan biridir. Öz orijinal, özünəməxsus texniki ifası ilə tanınan Respublikamızın xalq artisti Möhlət Müslümovun da ifaçılıq sənətində bir solo ifaçı kimi rolu böyükdür. O, nadir sənətkarlıq qabiliyyətinə, texniki cəhətdən mükəmməl ifaya malik sənətkarlardan biridir. Digər tarzənlərimiz Valeh Rəhimovun, Firuz Əliyevin, Elxan Mansurovun da hər birinin özünəməxsus dəst-xətti, özünəməxsus ifa üsulları vardır.

Üçüncü mərhələyə gənc nəsil ifaçı tarzənlərimizi aid etmək olar. Bunlar Ramiz Quliyev, Malik Mansurov, Elçin Həşimov, Əliağa Sədiyev, Bəhruz

Zeynalov, Şəhriyar İmanov, Mustafa Aşurov, Saleh Salahov, Sahib Paşazadə kimi ifaçılarımızdır. Bu cavan nəsl öz yüksək bədii texnikası, hazırlığı, interpretasiya qabiliyyətləri ilə xüsusi olaraq seçilir və öz çalışqanlıqları, alətin konstruksiyasında apardığı yeni-yeni eksperimentlər ilə və tara yeni pillələr əlavə etməklə dinləyicilərin zövqünü oxşayaraq onların böyük rəğbətini qazanmışdırlar. **Tar ifaçılıq sənətinin gənc nəsilini aşağıdakı xüsusiyyətlərlə səciyyələndirmək olar:**

1) müasir tar ifaçılığı ənənələrinə tam, bənzərsiz yeni texnika və bədii üslub gətirilməsi;

2) muğamların və bəstəkar əsərlərinin ifasında keyfiyyətcə fərqlənən yeni interpretasiyaları formalaşdırması;

3) tar alətində yeni səslənmə, tembr və digər ifadə imkanlarının aşkar edilməsi;

4) avropa musiqi alətlərinə xas olan müxtəlif ştrix və nüansları duyaraq onları ifadə etmə bacarığının formalaşdırılması;

5) sağ-sol əl və barmaq texnikasını həm fərqli, həmçinin eyni zamanda bədii ifadə imkanlarının novatorcasına əlaqələndirilməsi və ifa edilən əsərdə böyük məharətlə səsləndirilməsi;

6) müxtəlif yeni effektli ifa maneraların və texniki xüsusiyyətlərin əsasının formalaşdırılması.

Məlumdur ki, dahi bəstəkarımız Üzeyir Hacıbəyli tarın əsas pərdələrini Avropa klassik səs düzümünə məxsus tonlara uyğunlaşdırdıqdan sonra klassik əsərlərin not ilə çalınmasına nail olmuşdur. Bu yeni islahatlar sayəsində tar alətində dünya klassik musiqisinə məxsus əsərləri ifa etməyə imkan yaranmışdır. XX əsrin 60-cı illərində təməli qoyulmuş müasir tar ifaçılığı məktəbinin yaranması və təşəkkülü Ramiz Quliyevin adı ilə bağlıdır. Müasir dövrümüzdə xalq musiqimizi sevənlər arasında elə bir şəxs tapılmaz ki, tarın virtuoz ifaçısı, milli muğamlarımızın mahir bilicisi olan Ramiz Quliyevin yaradıcılığını dinləyib ondan bəhrələnməsin. Virtuoz ifası sayəsində onun xarici ölkələrə qastrolları da həmişə uğurla keçərək, dünyanın bir çox ölkələrində böyük rezonansa səbəb olub. R.Quliyevin tarı Türkiyə, Əfqanıstan, Qvineya-Bisau, Suriya, Hollandiya, İsveçrə, ADR, Pakistan, Əlcəzair, Tunis, AFR, Hindistan, Yaponiya, ABŞ, Kanada, Polşa, Danimarka, İran, İraq, Fransa, İngiltərə, Avstriya, İsrail, Norveç, Moldova və dünyanın digər ölkələrində dinlənilib və qarşılanıb. Çoxsaylı mükafatların sahibi olan görkəmli tarzən uzun illərdir ki, Bakı Musiqi Akademiyasında pedaqoq kimi də çalışır. Onun sayəsində hər il neçə-neçə gənc tarzənlər yetişir. Sənətkarın xarici və Azərbaycan bəstəkarlarının tar ilə fortepiano üçün işləyib köçürdüyü bir çox, olduqca dəyərli əsərləri çapdan çıxmışdır. Ramiz Quliyev eyni zamanda bir sıra dərsliklərin, proqramların, elmi məqalələrin və metodiki tövsiyələrin müəllifidir.

Tar ifaçılıq sənətində öz sözünü demiş novator sənətkarlardan biri də Respublikanın əməkdar artisti, Azərbaycan Milli Konservatoriyasının dosenti, sənətşünaslıq namizədi Həmid Vəkilovdur. Milli musiqimizdə öz orijinal dəst-xətti

ilə seçilən Həmid Vəkilov tar alətində ilk dəfə ayaq üstdə ifa edən sənətçi kimi də tanınmış və Azərbaycan musiqisinin təbliğatında gördüyü işlərə görə 1987-ci ildə Respublikanın əməkdar artisti fəxri adına layiq görülmüşdür. Hətta onun texnika və ifasının böyük dinləyicisi olan bəstəkar Zakir Bağırov məhz Həmid Vəkilovun ifası üçün "Tar üçün konserti" yazmışdır.

Bəzi gənc nəsil müasir tar ifaçılarımız beynəlxalq festivallarda iştirak edərək Respublikamızı layiqincə təmsil edirlər. Bura Sahib Paşazadə, Şəhriyar İmanov, Mustafa Aşurov, Əli Əliyev kimi tarzənlərimizi aid etmək olar. Azərbaycanın əməkdar artisti Sahib Paşazadə istedadlı ifaçı olmaqla yanaşı, tar alətinin təbliğatı ilə də geniş məşğul olur. Dünyanın bir çox ölkələrinə qatrol səfərləri edən istedadlı tarzən Sahib Paşazadə Azərbaycan tarının tarixi, inkişafı və texniki imkanları barəsində geniş təbliğatlar aparmışdır. Qeyd etmək lazımdır ki, Braziliyada keçirilən konsert zamanı ifaçı "Segah", "Mahur-Hindi", "Bayatı-Şiraz", "Cahargah" kimi Azərbaycan muğamlarından parçalar və "Azərbaycan", "Bənövşə", "Naz-Nazı" və digər Azərbaycan milli rəqslərini, habelə, braziliyalı bəstəkar Zeqinya Abreunun "Tiko-Tiko" əsərini Azərbaycan musiqisi ilə sintezini auditoriyaya təqdim etmişdir.

Azərbaycan tar ifaçılıq məktəbinin yeni, gənc və istedadlı nümayəndəsi olan Şəhriyar İmanov Milli Konservatoriyada pedaqoji fəaliyyət göstərməklə yanaşı, həmçinin karyerasını solo və müşayiət fəaliyyəti ilə davam etdirir. Bir neçə respublika müsabiqəsinin qalibi olmaqla yanaşı, Qırğızıstanda keçirilən "İssikkul yıldızları" festivalında, ABŞ-da "Sxsw music festival"ında, İsraildə "Oud festival"ında, Çində "Shanxai world music festival"ında, Fransada "Midem" festivalında, İsveçrə "Montreux jazz festival"ında, Almaniyada "Rudolshtat folk music" festivalında iştirak edən gənc ifaçı həmçinin, Yunanıstanda, İtaliyada, Çexiyada, Avstriyada, Ukraynada, Moskvada, İsveçrədə, Kiprdə müxtəlif konsert proqramları ilə çıxış etmişdir.

Mustafa Əhməd oğlu Aşurov ifası ilə prezident təqaüdünə layiq görülmüşdür. Həmçinin, adı Azərbaycan Respublikasının "Qızıl kitab"ına daxil edilmiş tarzənimizdir. Şotlandiya, Fransa, Norveç, Belçika, Britaniya kimi ölkələrdə konsert proqramlarında çıxış edən Mustafa Aşurovun ifası dinləyicilərin zövqünü oxşamış və böyük rəğbətlə qarşılanmışdır.

Tar ifaçılıq sənətində özünəməxsus ifaları ilə seçilən gənc istedadlı tarzənlərimizdən biri də Saleh Salahovdur. Muğam sənətinin sirlərinə Elxan Müzəffərovun və Ağasəlim Abdulyevin sinfində təhsil aldığı illərdə dərindən yiyələnən Saleh Salahov bir çox respublika müsabiqələrinin iştirakçısı olmaqla yanaşı həmçinin, müxtəlif illərdə Türkiyə, Gürcüstan, İran, Rusiya, Dağıstan və s. ölkələrdə muğam triosu ilə çıxış etmişdir. Gənc tarzənimizin ifasının özünəməxsusluğu Elxan Müzəffərov, Hacı Məmmədov və Əhsən Dadaşov kimi ifaçıların xüsusi ştrixlərini ilk dəfə aşkar edərək ifaçılıq fəaliyyətində geniş tətbiq etməsi ilə açıqlanır.

Müasir dövrümüzdə ifaları ilə seçilən tarzənlərimizdən biri də Bəhruz Zeynalovdur. Müxtəlif illərdə F.Manafov, A.Abdullayev, M.Kərimov, M.Quliyev kimi müəlllimlərdən tar sənətinin sirrlərini mənimsəyən Bəhruz Zeynalov həmçinin, bir neçə Respublika müsabiqələrində və Beynəlxalq festivalda da iştirak etmişdir. Türkiyə, Rusiya, Gürcüstan, İran kimi öklərdə müxtəlif illərdə konsertlərlə çıxış edən gənc ifaçı hal-hazırda musiqi kollecində pedoqoji fəaliyyət göstərir. Qeyd etmək lazımdır ki, simfonik orkestrlə ifa etdiyi V.Adıgözəlovun "Qərənfil", H.Rzayev "Cahargah rapsodiyası", H.Xanməmmədov "II konsert" əsərlərinə özünəməxsus ifa tərzini tədbiq etmişdir.

Beləliklə, tədqiqatımızda 3 mərhələnin hər birində olan görkəmli tar ifaçılarımızın yaradıcılıq fəaliyyətini işıqlandırdıq. Burada belə nəticəyə gəlmək olar ki, hər bir mərhələdə tarzənlərimizin ifaçılıq fəaliyyəti zəngin olmuş və hər bir digər mərhələlərdə daha da inkişaf edərək təkmilləşmişdir. İlk mərhələyə aid ifaçıların repertuarını xalq musiqimizin incilərindən biri hesab olunan muğamlarımız təşkil edirdisə, digər iki mərhələdə artıq onların yaradıcılıq repertuarı Avropa klassik musiqi xəzinəsini də əhatə etmişdir. Həmçinin, qeyd olunmalıdır ki, bu görkəmli ifaçı-tarzənlərimiz çoxlu sayda tələbələr yetişdirərək özləri özünəməxsus, yeni ifaçılıq məktəbləri yaratmışdırlar. Buna misal olaraq qeyd edə bilərik ki, tarzənlərimizdən Ceyran Haşımova, Əkrəm Məmmədov, Əbdülağa Nəcəfov, uzun illər "Xatirə" Xalq Çalğı Alətləri ansamblına rəhbərlik etmiş Adil Bağırov, professor, Əməkdar Elm Xadimi Məmmədağa Kərimov, Qədir Məmmədov, Ağasəlim Abdullayev, konservatoriyanın professoru Malik Quliyev, Bəhruz Zeynalov, Murtuz Əsədullayev və digərləri məhz Kamil Əhmədov məktəbinin məzunlarıdırlar. Müasir tar ifaçılıq sənətinin gənc təbəqəsi hesab edilən Bəhruz Zeynalov, Şəhriyar İmanov, Saleh Salahov və başqaları Ağasəlim Abdullayev, Elxan Müzəffərov, Ümid İbrahimov kimi əməkdar müəllimlərdən tar ifaçılıq sənətinin sirlərinə yiyələnmişlər.

ƏDƏBİYYAT

1. Əbdülqasımov V. Azərbaycan tarı. B.; 1989, 96 səh.
2. Əbdülqasımov V. Müasir tar ifaçılıq məktəbi. // "Müasir tar ifaçılıq sənəti "Elmi – praktik konfransın materialları. B., 2001
3. Əbdülqasımov F. Hacı Məmmədovun ifaçılıq sənətində varislik və yaradıcılıq məsələləri. Portretlər. Musiqi dünyası, 3-4(37), 2008, s.61-64
4. İsmayılov M.S. Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-metodik oçerklər. B.; Elm, 1991, 117s.
5. Musazadə R.M., Abdullayev A.S., Dadaşöv F.Ə. İnstrumental muğam tədrisi (bakalavr səviyyəsində "Ixtisas muğam" fənni üzrə dərslik). B.; MBM, 2014, 219 səh.

Notoqraqfiya

1. Azərbaycan dəramət və rəngləri. (Noyta yazan E.Mənsurov). B., İşıq, 1984
2. Azərbaycan dəramət və rəngləri. (Nota yazan E.Mənsurov və A.Kərimov). B., İşıq, 1986
3. Rüstəmov S. Tar məktəbi. B., Azərnəşr, 1935

Saytoqrafiya

4. http://garabagh.net/content_336_az.html
5. http://www.azeribalasi.com/muzik-adamlari-81/baki-mugam-meclisleri-79154/

Məqalənin redaksiyaya daxil olma tarixi: 17.01.2022
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 18.01.2022
Məqalənin çapa qəbul olunma tarixi: 15.02.2022
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Zemfira Abdullayeva
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.